Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası




# Dünyada ən uca zirvədir – Qadın!

**8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Dünyada ən uca zirvədir – Qadın!:** 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 28 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

*Qədim zamanlardan bəri Vətənə və torpağa sədaqəti ilə seçilən qadınlarımız milli məfkurəyə sadiq qalaraq bu gün də suveren Azərbaycan Respublikasının güclənməsi naminə töhfələr verirlər. Onlara xas olan işgüzarlıq, müdriklik, yüksək daxili mədəniyyət və xalqımızın yüzillər boyu təşəkkül tapmış zəngin milli-mənəvi sərvətlərinə sədaqət müasir Azərbaycan qadınının ictimai həyatımızda mövqeyini və simasını müəyyən edir.*

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

## Tərtibçidən

Ümummilli lider Heydər Əliyev 8 Mart Beynəlxalq Qadınlar bayramı ilə bağlı deyirdi: "Bu bayram, doğrudan da bizim bütün bayramlar içərisində ən gözəl bayramdır. Çünki bu qadınlara həsr olunubdur. İnsan cəmiyyətində qadının rolu, əhəmiyyəti məlumdur. Qısaca onu demək olar ki, qadınsız insan yoxdur, qadınsız həyat yoxdur. Qadınlar cəmiyyətdə, həyatda göstərdikləri bütün başqa xidmətlərlə yanaşı, ona görə ən yüksək qiymətə layiqdirlər ki, onlar anadırlar..."

Ümummilli lider Heydər Əliyevin 2000-ci ildə imzaladığı "Azərbaycan Respublikasında Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmandan irəli gələn məsələlərin həlli Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qadınlar ölkənin bütün ali orqanlarında əzmlə, məsuliyyətlə çalışırlar.

Bu gün Azərbaycanın birinci xanımı, YUNESKO-nun və İSESKO-nın xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva istər ölkəmizdə, istərsə də vətəndən uzaqlarda öz işi, bacarığı və əvəzsiz keyfiyyətləri ilə Azərbaycan xanımlarını ən yüksək səviyyədə təmsil edir və Azərbaycan qadınının nələrə qadir ola biləcəyini gördüyü işlərin sanbalı ilə sübut edir.

## Qadın və gözəllik bayramı

8 Mart – qadın və gözəllik bayramı kimi qeyd olunur. Lakin tarixə nəzər salsaq görərik ki, bu bayram heç də xoş hadisələr nəticəsində yaranmayıb. 8 martın Beynəlxalq Qadınlar Günü kimi qeyd olunması tarixi inqilabçı Klara Setkinin adı ilə bağlıdır. Klara 5 iyul 1857-ci ildə Almaniyada, Viderau - Saksoniya vilayətində anadan olub. Kənd müəllimi H. Eysnerin ailəsində dünyaya gəlib. 1910-cu il Kopenhagendə keçirilən beynəlxalq sosialist qadınlar konfransında Klara Setkin, 8 martın beynəlxalq qadınlar günü kimi qeyd olunması təklifi ilə çıxış etdi. Məhz bu tarixin seçilməsi təsadüfi olmayıb. Belə ki, 1857-ci ilin bu günü Nyu-Yorkda tikiş və ayaqqabı fabrikinin qadın işçiləri nümayişə çıxdılar. Onlar 10 saatlıq iş günü, işıqlı və quru iş yeri, kişilərlə eyni maaş tələb edirdilər. O zaman qadınlar sutka ərzində 16 saat işləyir, bunun müqabilində qəpik-quruş alırdılar. Kişilər qəti çıxışlardan sonra 10 saatlıq iş gününə nail oldular. ABŞ-ın bir çox müəssisələrində «həmkarlar ittifaqı» təşkilatı yarandı. 1857-ci il 8 mart tarixindən sonra ilk dəfə olaraq qadın üzvlərdən ibarət yeni «həmkarlar ittifaqı» təşkilatı yarandı. Həmin gün Nyu-Yorkun bir çox şəhərlərində yüzlərlə qadın nümayişə çıxaraq "seçki" hüququnu tələb edirdilər. 1911-ci il 19 mart tarixində bu bayram Avstriya, Danimarka, Almaniya və İsveçrədə qeyd olundu. O zaman milyondan artıq kişi və qadın nümayişlərdə iştirak etdilər. "Seçmə və rəhbər vəzifələri tutma hüququ"ndan başqa qadınlar kişilərlə bərabər, eyni işləri icraetmə hüququnu da tələb edirdilər. 1910-cu ildə Klara Setkin 8 martın dünya qadınlar günü kimi qeyd edilməsinə nail oldu. 1977-ci ildə BMT 8 martı "Beynəlxalq Qadınlar Günü" kimi elan etdi və bununla da "mübarizə" sözü bayramın adından götürüldü, bayram sevgi, diqqət bayramı kimi tarixə düşdü.

Qadınlar bayramı Azərbaycanda da geniş qeyd edilir. 1965-ci ildən keçmiş SSRİ-də 8 Mart – Beynəlxalq Qadınlar Günü istirahət günü elan olunub. Azərbaycan müstəqillik əldə

etdikdən sonra da 8 Mart – Beynəlxalq Qadınlar Günü ölkədə qeyri-iş günüdür. Azərbaycan qadınları artıq cəmiyyətin aparıcı qüvvəsinə çevriliblər. Milli əxlaqi dəyərlərimiz, adət-ənənələrimiz, dilimizin saflığı məhz analarımızın müdrikliyi sayəsində çətin və mürəkkəb dövrlərin sınağından çıxa bilib. Dünyanın bir çox ölkələrinin qadınlarından əvvəl seçib-seçilmək hüququ əldə etməsi, elm, mədəniyyət və digər sahələrdə qazandığı uğurlar Azərbaycan qadınının mədəni və intellektual potensialından xəbər verir.

Ölkəmizdə dövlət qadın siyasətinin əsasını qoyan ümummilli lider Heydər Əliyev qadın şəxsiyyətinə böyük hörmətlə yanaşırdı. Ulu Öndər ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırdı, onların hərtərəfli fəaliyyətinə geniş meydan verdi, lider qadınlar yetişdirdi. Dövlət qadın siyasətinin Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi sayəsində Azərbaycan qadınının cəmiyyətdə yeri və nüfuzu daha da artıb. Ölkəmizdə gender siyasətinin gücləndirilməsi, qadınların cəmiyyətdə rolunun yüksəldilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi uğurla fəaliyyət göstərir. Azərbaycan qadınları mühüm dövlət qurumlarında, parlament və bələdiyyələrdə uğurla təmsil olunur, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərdə fəal iştirak edir, ölkə idmanının inkişafına böyük töhfələr verirlər.

Heç şübhəsiz, Azərbaycan qadınları ölkəmizin inkişafı, qlobal dünyada mədəni-mənəvi zənginliklərimizin yaşadılması, gənc nəslin milli məfkurə və dövlətçilik ideallarına sədaqət ruhunda tərbiyəsi üçün bundan sonra da fəallıq nümayiş etdirəcəklər

## Keçiriləcək tədbirlər

8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə respublikamızın müxtəlif təhsil ocaqlarında, liseylərdə, kitabxanalarda, gimnaziyalarda bir sıra tədbirlər; şeir müsabiqəsi, mahnı müsabiqəsi oxucularla söhbət, konfrans, icmal, dəyirmi masa, bu mövzu ilə bağlı rəsm müsabiqəsi, ədəbi-bədii gecə və s. təşkil edilə bilər.

Kitabxanada keçirilən sərgilər kitabxana işində xüsusi önəm daşıyır. Qadınlar haqqında *"Qadın – adı kimi özü də əziz bir varlıq"* başlıqlı sərgi təşkili ilə uşaqlara anaya, bacıya, nənəyə, bir sözlə, bütün qadınlara məhəbbəti artıra bilərik. Sərgidə nümayiş edilən kitablar onlarda həm də ədəbiyyata marağı oyadır.






# Kitab sərgisi












## *Analar haqqında söylənilən fikirlər:*

Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi, millətinə, xalqına olan hədsiz məhəbbəti gözəlliyi və Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Ana! Dünyada sənin müqəddəsliyini təyin edə biləcək hələ heç bir ölçü yoxdur, sənin əzəmətini təsvir edə biləcək hələ heç bir kitab yazılmamışdır. Ən səmimi sevgilər, ən coşqun, saf məhəbbətlər və vicdani sədaqətlər “ana” kəlməsində olan həqiqi mənanı ifadə etməkdə acizdir.

**M. S. Ordubadi,**
*yazıçı, dramaturq*

Ey qucağı behiştim olan anam! Laylaların hələ qulağımda səslənir. Mən oyaqlıqda da, yuxuda da həmişə səninləyəm, sənsiz bir günüm olmasın.

**Məhəmmədhüseyn Şəhriyar,**
*Azərbaycan şairi*

Bir ana ürəyi, dibində həmişə əfv olan bir uçurumdur.

**O. Balzak,**
*fransız yazıçısı*

Uşağını itirən bir ana üçün hər gün ilk gündür; bu iztirab qocalmaz.

**Viktor Hüqo,**
*fransız yazıçı, dramaturq*

Qadının ən böyük vəzifəsi analıqdır.

**Mustafa Kamal Atatürk,**
*dövlət xadimi*

Mənə, oxuduğum kitabların ən gözəlinin hansı olduğunu soruşsanız deyəcəm: Anamdır.

**Avraam Linkoln,**
*dövlət xadimi*

Ana, həyatın sonsuzluğudur.

**Emile Zola,**
*fransız yazıçı*

Ana, hər vaxt haqlıdır.

**Herman Sudermann,**
*alman dramaturqu*

Analar, hər şeyi görməsələr belə ürəkləriylə eşidərlər.

**Aleksandr Ostrovski,**
*rusiya dramaturqu*

Cənnət anaların ayaqları altındadır.

Anasının könülünü qıran böyük günah işləmiş olar.

**Hz. Məhəmməd**

Kitabxanada 8 Mart Beynəlxalq Qadınlar Günü ilə bağlı ***"Ana qəlbi kövrək olar"*** adlı oxucularla söhbət keçirmək olar. Bununla ədəbiyyatda geniş mövzu olan ana mövzusunda şeir və poemalardan istifadə etməklə ana borcunun nə olduğunu uşaqlara anlada bilərik.
*Kitabxanaçı:* Ümummilli lider Heydər Əliyev deyir: “Ana ilahi qüvvə, ulu varlıqdır, alilik, adilik, aqillik zirvəsidir, yaşadan,

yaradan, ərsəyə gətirən, kamala yetirəndir, saf duyğular, zərif hisslər, incə mətləblər timsalıdır”.

Deyirlər ki, ana ürəyindən qopan laylalar həyatın ən şirin təranəsidir. Bu təranənin ahəngindəki mənalar min-min arzunun səsidir. Bəlkə də, ona görə bəşər var olan gündən ananın ünvanına həmişə xoş sözlər ünvanlanıb. Ana o qədər ilahi və müqəddəs varlıqdır ki, vətəni də onun ismi ilə **"Ana vətən"** adlandırırlar. Şifahi xalq ədəbiyyatında, folklor nümunələrində, dastanlarda, bayatılarda, el nəğmələrində ana olduqca müqəddəs bir varlıq kimi vəsf olunub. Təsadüfi deyildir ki, analara ən yüksək qiyməti də Məhəmməd peyğəmbər (s.ə.s.) verib: "***Cənnət anaların ayaqları altındadır".*** Ana haqqında atalar sözləri də çoxdur. Bu müdrik fikirlərin məna çalarlarına diqqət yetirdikdə həyatın bütün rəngləri göz önündə canlanır: *"Ana ürəyi, dağ çiçəyi", "Ana səbri böyükdür", "Ana qəlbinə toxunmaq olmaz", "Ana haqqı, Tanrı haqqı", "Anadan artıq yavər olmaz", "Analı qızın işi görünər, anasız qızın dişi", "Analı qızın özü böyüyər, anasız qızın sözü".*

Ana haqqında yazılan şeirlərin, hekayə və povestlərin siyahısını tutsaq o qədər geniş bir mündəricə ilə rastlaşarıq ki... Çünki əli qələm tutan hər kəs sanki anaya olan borcunu qəlbindən gələn lətafətli sözlərlə qaytarmaq istəyib.

Ana adı çəkilən kimi hər kəsin ürəyindən xəfif bir həsrət keçir. Yaşından-başından asılı olmayaraq, laylalı günlərinə qayıdırsan. Ananın birinci rəmzi, onun iç dünyasını açan, portretini yaradan şirin laylalarıdır. Elə bizim muğamatımızın da, segahımızın da ilk notları ana laylalarından su içib. Gecənin sübhə qarışan o uzun və nəğməli yolu ana laylasıdır. Elə bir bəstəkar, elə bir musiqiçi yoxdur ki, onun ana laylası tək möhtəşəm bir əsəri olsun?! Bütün mahnılardan artıq sevdiyimiz şirin bir nəğmədir ana laylası! Səsi ruhumuzu oyadar. Sanki bir rəssam fırçası ilə həyatın rəsmini çəkib ana laylası! Şair Əli Vəkilin qəribə bir epiteti var: *"İlk ana laylası Həvvadan yadigar qalan ana laylasıdır!"* Bəlkə də, buna görə ondakı şirinliyi, lətafəti ifadə

etmək üçün yetər ki, ürəklə deyəsən: *"Ən şirin, ətirli bal dünyanın ana laylasıdır, ana laylası!"* İlk dil açanda da "ana" deyirik, dünyanı tərk edəndə də son kəlməmiz "ana" olur. Ən ağrılı halımızda da "ana" çağırır, sevinəndə gözlərimiz o müqəddəs varlığı axtarır. Laylalar bizim ilk eşqimiz, fəxrimiz, qürurumuzdur. Hələ dünyanın adiliklərindən belə, xəbəri olmayan dilsiz körpələrin üzünə ilk təbəssümü gətirən də, onları sevindirən də, onlara xoş hisslər aşılayan da ana laylasıdır. Gecənin şirin yuxusu hamını öz cazibəsinə alıb aparanda səhərədək göz qırpmayan analar körpəsi şirin uyusun deyə beşik başında ayıq-sayıq dayanaraq layla deyir. Əvvəlcə beşik başında analar, sonra isə beşikdəki yavrular böyüyüb vətən sərhədlərində torpağın, millətin və nəhayət, anaların keşiyini çəkir. Qəribə oxşarlıq və bağlılıqdır. Yer üzünün ilk əsgəri analardır! İlk himni də ana laylası!

Təəssüf ki, analı günlərin ömrü çox da uzun olmur. Nə vaxtsa ana itkisi qapımızı döyür. Bu dərd isə çox dözülməzdir. Hətta insan özü qocalıb əldən düşənə qədər anasızlığı ilə barışa bilmir. Məmməd Araz bu dərdi özünə uzun illər yaxın qoymaq istəmirdi: "**Hərdən inanmıram ölüm haqq ola. Ana dəfn oluna, gözəl qocala".** Bu kövrək duyğuları öz poeziyasında dəfələrlə dilə gətirən Cabir Novruz görmək istəmədiyi bir halı kədərlə etiraf edirdi: **"Gözüm görə-görə qocalır anam".**

Bəzən elə övladlar var ki, onu böyüdən, ərsəyə gətirən, min bir əzabını çəkən anasına yetərincə diqqət ayırmır. Əli Kərim beləsi haqqında **"Qaytar ana borcunu"** adlı şeirində kəskin və qətiyyətlə deyirdi:

Deyirəm ki, o boyu, buxunu qaytar geri,
Deyirəm ki, varını, yoxunu qaytar geri!
Qaytar onun borcunu,
Gülüşünü, adını, sözünü qaytar geri!
Qaytar onun borcunu, o borc sənin özünsən, özünü qaytar geri!

Şair Çingiz Əlioğlu isə bu borcu qaytarmaq üçün görün nə deyir: **"Bir ana borcunu qaytarmaq üçün, taledən beş ömür alasan gərək"**. Tofiq Bayram isə ana qədrini bilməyənlərə üz tutaraq yazırdı:

Onu alçaldan da, ucaldan da biz,
Dərd verib vədəsiz qocaldan da biz.
Biləndə qədrini bu cahanda biz
Həmişə cavandır ana ürəyi.

Bəxtiyar Vahabzadə də gözlərinin işığını əridib yollarımıza nur çiləyən analar barəsində saysız-hesabsız poetik ərməğanlar qələmə alıb. Bu mövzuda yazılan şeirlərindən hansı ləçəyi çəksən, müdrik bir fikrin əks-sədasıdır: **"Əgər ana ürəyinə toxunsan, quş yuvası dağıdırsan elə bil", "Sənin zəif vücudunun önündə, əyilmək də ucalmaqdır, ay ana!".**

Xalq şairi Süleyman Rüstəm **"Ana və poçtalyon"** adlı şeirində gözləri yollarda qalan, oğul dərdi ilə saralıb-solan anaların işıqlı obrazını yaratdı: "Dörd ay vardı ananın gözləri yol çəkirdi. Başqa bir dərdi yoxdu, oğul dərdiydi dərdi". Bu şeirin ahəngindəki ana məhəbbəti, vətən eşqi, oğul dərdi çox dərin və təsiredici verilib. Təəssüf ki, əsrin sonlarında analarımız yeni bir bəlanın ağrılarına tuş oldu! Qaçqına, köçkünə, didərginə və nəhayət, şəhid anasına, bacısına çevrildilər! Özü də şəhid oldu! Fikrət Qoca yazıb: **"Əcəl başlayar biçinə, torpaq ağlar köçünə, göz yaşı axar içinə, namərdə gülər analar". Dünyanın ən gözəl sözünə, təltifinə, mükafatına layiq olan Azərbaycan analarının bu dərdi poeziyamızda ağır bir kədərlə dilə gətirilir.**

Orda bir evimiz bizlərə həsrət,
Yurddan didərginik, qonağıq, - dedin.
Yönümüz dağlara, düzlərə həsrət,
Getməsək ölərik, qınağıq, - dedin.

Anaya olan məhəbbət, sevgi hər zaman ürəklərdə yaşayıb. Bəşəriyyət ana adını, ana şərəfini, ana şənini hər zaman başı üzərində gəzdirirdi. Anaların nigaranlığı və qayğısı bəşəriyyəti hər zaman bəlalardan qoruyub. Analar dünyanı hər zaman sülhə, firavanlığa, əmin-amanlığa səsləyiblər.

Ağ südün əmdiyim, qadınım ana,
Ağ birçəkli, izzətli canım ana!

Təkcə bu iki misra bəs edər ki, rəssamlar, heykəltəraşlar, söz-sənət adamları möhtəşəm ana heykəli, ana abidəsi yarada bilsinlər.

Kitabxanaçı çıxışından sonra uşaqlara anket sorğusu da hazırlaya bilər.

1) Ana deyəndə nə düşünürsünüz?

2) Ana borcu nədir?

3) Ana borcunu necə qaytara bilərsiniz?

4) Nə üçün ana müqəddəsdir?

5) Ananızı sevirsinizmi?

Kitabxanada oxucular arasında Anaya həsr edilmiş *şeir və inşa* müsabiqələrinin keçirilməsi də məqsədəuyğundur. Bu müsabiqələrin keçirilməsi uşaqlarda anaya məhəbbəti, hörməti aşılamaqla yanaşı, intonasiyasının yaxşılaşdırılması, sərbəst inşa yazmaq qabiliyyətlərinin artmasına kömək edir. Şeir müsabiqəsi keçirilməzdən əvvəl anaya həsr edilmiş şeirlər kitabxanaçı tərəfindən seçilib uşaqlara paylanır. Bu şeirləri seçərkən C. Cabbarlı, B. Vahabzadə, Ə. Cavad, Cabir Novruz, Tofiq Bayram və b. yazıçılarımızın yaradıcılığından bəhrələnə bilərik. Şeirləri "Regional İnkişaf" İctimai Birliyi layihəsi olan "Ana

dedim, qarşımda gözəl bir səhnə açıldı” kitabından seçə bilərik. Ən yaxşı şeir söyləyən iştirakçı mükafatlandırılır.

**“Ana məhəbbəti”, “Mənim anam”** başlıqlı inşa müsabiqəsinin təşkili zamanı kitabxanada müsabiqənin keçirilməsi haqqında elanlar ərazilərdəki məktəblərə və uşaq müəssisələrinə paylanır, kitabxananın internet səhifəsində də yerləşdirilir. Təqdim edilmiş inşalar münsiflər heyəti tərəfindən seçilir. Qalib seçilmiş oxucuya müdriyyət tərəfindən mükafat verilir.



Kitabxanalarda mövzuyla bağlı yazılı plakatların da xüsusi tərbiyəvi əhəmiyyəti var. Bunu nəzərə alaraq, kitabxanada analarımız haqqında yazılı plakatlardan da istifadə edilməsi məqsədəuyğundur.

Analarımızın adı həmişə uca tutulan respublikamızda 8 Mart Beynəlxalq Qadınlar Günü hər il yüksək səviyyədə qeyd edilir. Bu gün respublikamızın bir çox mədəni-maarif ocaqlarında, həmçinin kitabxanalarda analara həsr edilmiş tədbirlər keçirilir. Müasir dövrdə uşaq kitabxanalarının əsas vəzifələrindən biri gənclərdə elmə, təhsilə maraq oyatmaq, anaya, vətənə hörmət, məhəbbət və sevgi aşılamaqdır. Anaya hörmətin sevginin güclənməsi, aşılanması mövzusunda gənclərlə söhbətlər, icmallar sərgilər və s. keçirmək münasibdir. Bu zaman kitabxanaçı dil sadəliyi ilə bədii ədəbiyyatda bu mövzuda yazılmış əsərlərin təhlilinə müraciət etməklə gənclərə ana haqqının övladları üstündə nə qədər böyük olduğunu göstərə bilər.



## Rəsm müsabiqəsi

Kitabxanada *"Anaları övladların gözü ilə*" rəsm müsabiqəsinin keçirilməsi də məqsədəuyğundur. Rəsm müsabiqəsində qüdrətli söz dastanımız olan "Kitabı Dədə Qorqud" eposundakı qadınların, xalqımızın əfsanəvi qəhrəmanı Koroğlunun Nigarın və Qaçaq Nəbinin Həcərinin obrazlarının şəkilləri çəkilə bilər. Məlumdur ki, bu dastanlarla uşaqlar məktəb yaşlarından tanışdılar. Müsabiqədə onlar bu obrazlarla Azərbaycan qadınını necə gördüklərini təsvir edəcəklər. Düşündükləri əsl Azərbaycan qadınını rəsmlərdə əks etdirəcəklər.

## Oxucu konfransı

Ulu keçmişlərdə tayfa ləyaqətini qoruyan, vətən təəssübünü çəkən çox analarımız olub. Hərəsinin öz isməti, öz həyası, əllərində kaman, ox, qarşıda düşmən. Yay dartıb, ox atıblar. Onlar ad qazanmaq üçün yaşamayıblar. Əməlləri, arzuları, hünərləri ilə yurdlarını yadlardan qoruyublar. Təxminən 40 min il bundan əvvəldən başlayaraq 6 min il bundan əvvələ qədərki geniş bir tarixi dövrdə qadınlar hətta tayfalara başçılıq ediblər.

Kitabxanada tariximizi öyrənmək üçün tədbirlərdə oxuculara Qəhrəman qadınlarımız haqqında məlumat verə bilərik. 8 Mart Beynəlxalq Qadınlar Günündə qadınlarımıza həsr edilmiş "*Tarixdə qəhrəman qadınlarımız*" başlıqlı oxucu konfransı keçirə bilərik. Konfransda Azərbaycan qadınının qəhrəmanlığı, el anası, el ağsaqqalı, olmasından, tarixin müxtəlif yönlərində ləyaqəti, zəkası, düşüncəsi ilə uğurlar qazanıb hünərlər göstərən qadınlarımızdan, ağıllı, təmkinli və tədbirli, sərkərdə, hökmdar Tomris haqqında, Sara xatun, Şəmsəddin Eldənizin həyat yoldaşı "Möminə xatun", Koroğlunun Nigarı, Qaçaq Kərəmin Həcərin qəhrəmanlıqlarından danışmaq maraqlı olar.

## İcmal

Azərbaycan ədəbiyyatının klassikləri əsərlərində həmişə qadınlara yüksək dəyər veriblər. Bu, əslində həm də bəşəriliyin təsdiqidir. Böyük Azərbaycan şairi H. Cavidin yaradıcılığında qadına münasibət məsələsi belədir ki, o, kiçik yaşlarından qadın hüquqsuzluğunun şahidi olduğundan bütün yaradıcılığı boyu yaratdığı müsbət qadın surətlərinin dili ilə bu haqsızlığı aradan qaldırmaq üçün mübarizə aparıb. Gənc Hüseynin belə ideyalara sahiblənməsində o vaxtkı Türkiyənin ədəbi mühitinin çox böyük rolu olub.

Analarımıza aid yazılan şeirlər çox olduğundan, onlar toplanaraq kitab halında çap olunmuşdur. Bu kitab *"Ana dedim qarşımda gözəl bir səhnə açıldı" adlanır.* Gördüyünüz kitab 2012-ci ildə "Regional İnkişaf" İctimi Birliyinin xüsusi layihəsi kimi "Bakı" nəşriyyatı tərəfindən nəşr edilmişdir. Kitab ön söz və 770 səhifədən ibarətdir.

Kitaba Azərbaycan ədəbiyyatında və eləcə də digər xalqların poeziyasında bu günədək ana haqqında yazılmış şeirlər daxil edilmişdir. Burada ən ülvi hisslərə, ən doğma sözlərə, ən böyük məhəbbət və sevgiyə layiq olan ana və onun qüdrəti müxtəlif qələm adamlarının fikir süzgəcindən keçərək oxuculara çatdırılmışdır. Bu şeirlərdə övlad, ana, valideyn sevgisi, anaya olan sonsuz məhəbbətdən söhbət açılır. Heç vaxt qocalmayan analarımızın sevgisi hər bir xalqın poeziyasının dilindən tərcümə edilərək bizlərə çatdırılır.

Qadın anam nə ağlarsan?!
Nə bozlarsan, nə ağlarsan?!
Bağrımla ürəyim nə dağlarsan?
Keçmiş mənim günümü nə andırarsa
Hey ana ərəbi atlar olan yerdə,
Bir qulunu olmazmı olur?
Qızıl dəvələr olan yerdə,
Bir köşəyi olmazmı olur?..

“Kitabi Dədə Qorqud” da qadın qəhrəmanlığı, analar haqqında deyilmiş tərifdir. Dastanda ana obrazı xüsusilə diqqəti cəlb edir. O, vətən rəmzi kimi ümumiləşdirilir, ana haqqı Tanrı haqqı kimi qiymətləndirilir. Əfzələddin Xəqani isə Ana haqqını belə qiymətləndirmişdir:

Əgər olmasaydı ana zəhməti,
Qazana bilməzdim bu məhəbbəti.
Onun ruzisi ilə xoş olar halım,
Onun duası ilə gülər iqbalım.
Onun hər sözündən alaram qüvvət,
Qəlbimi mum etdi, verdi nəsihət.
Düşmən tənəsilə, kəsilsə yolum,
O, zərif qarıdan güc alır qolum...

Nizami Gəncəvi “İsgəndərnamə” əsərində isə belə yazırdı:

Nə qədər, ağlayıb yansa da ürək,
Anama dil verən, varmıdır görək?!
Çəkməklə qurtarmaz bu dərdi inan,
Bu girdab dərindir insan boyundan.

Kitabda İmadəddin Nəsimi və Məhəmməd Füzulinin də anaya aid şeirləri yer almışdır. Klassiklərimizdən Abbas Səhhətin “Ana və bala”, “Oğru və anası ”, “Ana və oğul ”şeirləri çox mükəmməldir. “Ana və oğul” şeiri ananın balasını tənbəlliyə alışmamaq üçün verdiyi bir öyüd nəsihətdir.

Gün çıxıb dağa-daşa nur səpər,
Hamı dünyada çalışmağın sevər,
Hərə bir səmtə gedər əhli Hünər.
Ana övladına şəfqətlə deyər:
– Yatma bu payədə rahat a cocuq
Etmə tənbəlliyə adət a cocuq.

Ana məhəbbəti ən ülvi bir hiss kimi şifahi xalq yaradıcılığımızdan tutmuş yazılı ədəbiyyatımıza qədər bütün

ədəbi nümunələrdə özünün geniş poetik əksini tapmışdır. Sənətkarlarımız anaya olan dərin məhəbbətlərini müxtəlif sənət əsərlərində çox məharətlə ifadə etmişlər. Təkcə böyük Cəfər Cabbarlının "Ana" şeirini xatırlamaq kifayətdir ki, ana məhəbbəti, müqəddəsliyi haqqında tam təsəvvür əldə edəsən. Bu lirik şeir anaya həsr olunmuş ən böyük himn, ən gözəl simfoniyadır.

Ana! Ana!... o adın qarşısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir;
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir.

Görkəmli şairəmiz Nigar Rəfibəylinin yaradıcılığında qadın qəlbinin təmizliyi, ana məhəbbətinin müqəddəsliyi motivləri çox qüvvətli səslənir. Ana əzəmətini hər şeydən üstün tutan şairə, bu mövzuya aid ürəkləri riqqətə gətirən dərin məzmunlu şeirlər yaradır, anaların simasında bütün qadınlığı, qadın şərəfini, qadın heysiyyətini müdafiəyə qalxır. Şairənin ana obrazı onun öz şəxsiyyəti ilə birləşir. Lirik qəhrəmanın dili ilə demək istədiyi fikirlər şairənin özünün ürəyindən qopan xoş niyyətli arzulardır. Şairə özü də bir ana kimi bəşəriyyətin, ana övladlarının müdafiəsinə qalxır, sülhü, əmin-amanlığı müdafiə edir, müharibələrə, insan ölümünə səbəb olan amillərə nifrətlər yağdırır:

Sən anasan, mənim də analıq şərəfim var,
Anaların qəlbində birdir böyük duyğular.
Haray salıb qaldıraq anaları yuxudan,
Dünyada heç bir ana mürgü döyməsin bu an.
Qalxsın bütün analar sülh, səadət naminə!
Gələcək nəsillərə gözəl həyat naminə!

Ana həyatımızın ən müqəddəs varlığı, ən ülvi canlısıdır. Ana qəlbində idraka sığmayan bir mərdlik, səbir və dözüm vardır. Bu mərdlik və dözümlülük qarşısında, bu ülvi məhəbbət qarşısında biz hamımız baş əyir, səcdə qılırıq. Ana məhəbbəti bir

ümmandır. O, övladının xoşbəxtliyi uğrunda bütün əzablara sinə gərir, hər cür çətinliklərə dözür, od ətrafında fırlanan pərvanə kimi ürəyinin yağını əridir.

Ana! Bax bu sözün mənası nədir?
Ana! Oda aşiq bir pərvanədir.
Dolanır başına daim övladın,
Ana- müqəddəsdir o təmiz qadın!

Kitabxanalarda keçirilən kiçikyaşlı oxucular arasında ifadəli oxular bədii ədəbiyyatın təbliğində ən gözəl formalardandır. Kiçik yaşlı oxucularda anaya hörmət, anaya məhəbbət, sevgi aşılamaq ifadəli oxularda seçilən bədii ədəbiyyat nümunələrində öz əksini tapmalıdır. Belə şeirlər vasitəsilə uşaqları folklor nümunələrindən olan oxşamalarla tanış edirik.

Oturmuş ana,
Basmış bağrına
Nazlı körpəsin,
Layla der ona.
Uşaq yatmayır,
Baxır ağlayır.
Anası onu
Bu cür oxşayır:
Dağda darılar,
Sünbül sarılar,
Qoca qarılar
Bu balama qurban...

## Ədəbi-bədii gecə

Kitabxanada oxucular tərəfindən sevilən tədbirlərdən biridə ədəbi-bədii gecələrdir. Tədbirin keçiriləcəyi zal anaya aid sözlər və fotolarla bəzədilir. Həmçinin“*Anadan artıq yavər olmaz”* başlıqlı sərgi təşkil olunur. Sərgidə Ana haqqında müxtəlif

sitatlar, anaya aid yazılmış şeir, poemalardan parçalar və qəzet materiallarından istifadə olunur.

Analara həsr olunmuş mahnı sədaları altında tədbir başlayır. İştirakçılar ana haqqında hazırlanmış slayda tamaşa edirlər. Slayd bitdikdən sonra aparıcılar səhnəyə daxil olurlar.

**I aparıcı:** Salam hörmətli tədbir iştirakçıları, sevimli analar. Bu tədbir adları kimi özləri də bizlərə əziz olan, adına şeirlər, mahnılar yazılıb, dastanlar qoşulmuş analarımıza həsr edilib. İstərdik tədbirimizi poeziyamızın dahi mütəfəkkiri Əhməd Cavadın bir misrası ilə başlayaq:

Bəzən olur həyatımın dağlarını duman alır,
O gün sənin titrək laylan yollarıma işıq salır!
Sənin məmnun olduğun gün, ruhum məndən məmnun qalır,
İnandım ki, cənnət sənin ayağının altındadır!

**II aparıcı:** O analar ki, hər birimiz onun isti nəfəsi, qayğısı ilə böyüyüb həyata atılırıq. Yaşa dolsaq da, hər zaman onun əllərinin şəfqətinə ehtiyac duyuruq. Ağrıyanda başımızı onun dizinin üstünə qoyub rahatlanmaq istəyirik. O, isə bütün çəkdiyi əzab-əziyyətə baxmayaraq, daim gülümsər çöhrəsi, mehriban nəvazişi, şirin laylası ilə narahat qəlbimizi ovundurur, ömrümüzü işıqlandırır. Ana o varlıqdır ki, insanlıq hər zaman onun işığına möhtacdır. Demək, anaların bayramı elə hamımızın bayramıdır. Çünki analar başımızın tacı, ömrümüzün bəzəyidir.

**I aparıcı:** Həm də ona görə bizlərə əzizdirlər ki, biz həyatda qiymətli olan nə varsa onları anaya bənzədirik: "Ana təbiət", "Ana torpaq", "Ana vətən". Bu mövzu ədəbiyyatımızda *"Kitabi Dədə Qorqud"* dan başlayaraq Nizaminin, Füzulinin, Xaqaninin və onlardan sonra gələn ədiblərimizin yaradıcılığında həmişə yaşayan bir mövzu olmuşdur. Böyük Əfzələddin Xəqani, Mirzə Ələkbər Sabir, Nigar Rəfibəyli öz əsərlərində Analara belə qiymət vermişdilər.

*Səhnədə bir neçə oxucu şairlərin dilindən söyləyir.*

**Əfzələddin Xəqani:** Əgər olmasaydı ana zəhməti,
Qazana bilməzdim mən bu şöhrəti.

**II aparıcı:** Nizami Gəncəvinin də, mərdlər yetişdirən igidlər bəsləyən, Nüşabələr doğan analar haqqında söylədiyi fikri 800 ildən artıqdır ki, dillər əzbərinə çevrilib:

**Nizami Gəncəvi:** Aslanın erkəyi-dişisi olmaz.

**I aparıcı:** Mirzə Ələkbər Sabir də öz dövründə anaları elmə, kamilliyə səsləyirdi:

**M.Ə. Sabir:** Elmli ananın övladı kamil olar.

**II aparıcı:** Məhəmmədhüseyn Şəhriyar isə analar haqqında bunu deyirdi:

**M.H. Şəhriyar:** Biz min aləmin yaradıcısı olsaq da hər birimizi ana yaratmış.

**I aparıcı:** Özü də ana olan söz ustadı Nigar Rəfibəyli ana məhəbbətini dünyanın arzuları, insanlığın baharı adlandırırdı.

*Sözləri Fikrət Qocaya, musiqisi Sevil Əliyevaya aid "Ana" haqqında elegiya səslənir.*

**II aparıcı:** Ana haqqında eşitdiyimiz çoxlu rəvayətlər də var. Bunlardan birinə gəlin uşaqların ifasında tamaşa edək:

*(Ağ saçlı, saqqallı formada iki uşaq səhnəyə gəlir. Səhnə arxasında aparıcının səsi.)*
**I aparıcı:** Qədim zamanlarda iki dünyagörmüş, ağsaqqal qardaş varmış: Aranbaba və Dağbaba. Dağbaba dağlarda, Aranbaba aranda məskən salmışdı. Dağbabanın ipə-sapa yatmayan, od

parçası kimi bir nəvəsi vardı. O, babadağın buzlu zirvələrini ayaqyalın başıaçıq hər gün qalxar, yüyürərdi. Hər dəfə Dağbabaya – uşağı belə buraxmayın, xəstələnər dedikdə, bu mənim nəvəmdirsə heç nə olmaz deyərdi. Bir dəfə Dağbabaya çatdırdılar ki, o soyuqdan heç nə olmaz dediyin nəvən soyuqdan tir-tir əsir. Heç nə əlac eləmir. Dağbaba cavabında – O, anasını itirib ona görə ürəkdən üşüyür, onu heç nə isitməz deyir.

**II aparıcı:** "Ana əlinin qiyməti" deyiminin mənası haqqında el arasında çoxlu deyim və rəvayətlər var. Bu haqda yazmış görkəmli yazıçımız Fikrət Sadığın "Ana əli" poeması təsirlidir.

... Loğman ataya baxdı,
Loğman "ana"ya baxdı,
Yetimlərin gözündə
Donan mənaya baxdı.
Dedi ki, birdən-birə
Bunlar azarlamazlar.
Bir ah çəkdi bu ara.
Xəstələrinə dərman
"Ana əlini" yazdı.

**I aparıcı:** Analar haqqında yüzlərlə mahnı var. Klassik xanəndələrimizdən tutmuş müasir ifaçılarımıza qədər hər kəs öz repertuarında ana mövzusuna xüsusi yer verib. Vaxtilə Zeynəb Xanlarova böyük məhəbbətlə Ənvər Əlibəylinin sözlərinə yazılmış "Anama" mahnısını özünəməxsus məharətlə ifa edərək sevdirə bilib.

*( Mahnı səslənir.)*

**II aparıcı: "Anacan, mən sənə çox borcluyam, çox"** misrası ilə başlanan bu mahnı 40 ildən artıqdır ki, səslənməkdədir. Eləcə də bəstəkar Cahangir Cahangirovun İslam Səfərlinin sözlərinə yazdığı "Ana" mahnısı unudulmaz Rəşid Behbudovun ifasında elə bir zirvəyə ucaldı ki, bu gün də o nəğməyə həyəcansız qulaq asmaq mümkün deyil:

*(Mahnı səslənir.)*

Gözümün nuru, canım ana,
Böyütdün sən məni yana-yana.
Odlusan gün kimi, bu qaynar həyat kimi,
Borcluyam mən sənə, sənə bir övlad kimi,
Əziz ana!

Bütün arzu-kamı qəlbimizdə qərar tutmuş, qədrini el, ətrini gül bilən analarımızın saçının ağına, qarasına, könlünün o həzin laylasına qurbanıq. Ona görə ki, onun südü təmiz, diləyi müqəddəsdir. Mikayıl Müşfiqin *"Ana"* şeiri də nəğmə libası geyərək elləri dolaşmaqdadır:

***"Ana dedim, qarşımda bir gözəl səhnə açıldı".***

**I aparıcı:** Belə bir ifadə də var ki, ananın nəfəsindən çiçək də solmaz. Şair Zeynal Vəfa *"Analar"* adlı şeirində bu böyük ürəkli müqəddəs varlığın ünvanına göndərdiyi poetik töhfədə üstümüzdə haqqı ömürlük olan, borcunu heç vaxt qaytara bilməyəcəyimiz zərif, lakin qüdrətli xilqət haqqında öz duyğularını belə ifadə edir:

Analar Günəşdən, Aydan qəlbidir,
Silərlər cahandan kədəri, yası.
Dünyanın paytaxtı ana qəlbidir,
Dünyanın ilk himni ana laylası.
Anasız olmasın ömrü heç kəsin,
Günəştək nur səpir eşqi cahana.
Everest zirvəsi qoy inciməsin,
Dünyada ən uca zirvədir ana!

**II aparıcı:** "Ana qəlbi möcüzələr xəzinəsidir”,"Ananın məsuliyyəti böyük, vəzifəsi müqqəddəsdir”, "Analar böyük vəzifələrini yerinə yetirdikdə heç bir əvəz almaq fikrində olmurlar”... Ancaq bu ifadələrdən hər biri nə qədər gözəl səslənsə də, onlardan hər birinin məna yükü nə qədər dərin olsa da, ananın əzəmətini, ucalığını, həyatımızdakı rolunu bütün dolğunluğu ilə tam əks etdirmir. Ana əlçatmaz zirvədə dayanır.

Böyük Azərbaycan yazıçısı M.S.Ordubadi isə bunun təsdiqi kimi yazmışdır: "Ana! Dünyada sənin müqəddəsliyini təyin edə biləcək hələ heç bir ölçü yoxdur, sənin əzəmətini təsvir edə biləcək hələ heç bir kitab yazılmayıb".

**I aparıcı:** Biz "Ana Vətən" deyib ananı havasını udduğumuz, çörəyini yediyimiz, üstündə gəzdiyimiz Vətənə, "Ana dilim" deyib ruhumuzun ifadəsi, varlığımızın təsdiqi olan doğma dilimizə bərabər tuturuq. Bir də ana uca Tanrı ilə müqayisə olunur. "Ana haqqı – Tanrı haqqı" deyib müdriklər. Tanrı yeri-göyü yoxdan xəlq edib, bəşər övladı isə ana bətnində dünyaya göz açır. Bir mahnıda səsləndiyi kimi:

*Ana, sən həyat verdin mənə...*

Lakin ana öz övladına yalnız həyat vermir, min bir çətinliyə qatlaşaraq onu böyüdür. Övladı boya-başa çatanadək ananın çəkdiyi əzab-əziyyəti heç nə ilə müqayisə etmək mümkün deyil. Beşik başında keşik çəkib, səhəri gözlərində açan da, biz çətinliyə düşəndə şam kimi əriyən də, böyüdükcə boyumuza baxıb qürrələnən də anadır. Ana təbiətcə zərif məxluq olsa da, o öz balası yolunda göstərdiyi fədakarlıqlara görə qartala bənzəyir. Həmişə məğrur, qorxmaz, həmişə yüksəklikdə uçan qartala. O, övladını təhlükələrdən qartal şücaəti ilə qorumağa hazırdır, hətta lazım gəlsə, düşmən üstünə şığımaqdan belə çəkinməz. Hər birimizin gələcək həyat yolunun müəyyənləşməsində də ananın rolu əvəzsizdir. Biz ilk tərbiyəni ondan alırıq. Ananın şəxsi nümunəsi, verdiyi öyüd-nəsihətlər dünyagörüşümüzün formalaşmasında mühüm rol oynayır. Analarımız barəsində tez-tez fikirləşəndə onun mehriban, nurlu çöhrəsi gözlərimizin önünə gələndə, gələcəyə daha nikbin nəzərlərlə baxırıq. Gəlin analarımızın qarşısında olan borcumuzu heç vaxt yaddan çıxarmayaq. Bunun üçün dünyada xüsusi bir gün qeyd olunur. Bu gün analarımızı ən azından diqqətdən kənar qoymayaq. Onlara ən gözəl kəlmələri seçib söyləyək.

## Ədəbiyyat siyahısı

**Ana dedim, qarşımda** gözəl bir səhnə açıldı. - Bakı : 2012. - 771 s. - Regionların inkişafı ictimai birliyinin xüsusi layihəsi.

**Ana! Ana! Ana!** : Antologiya (şeirlər toplusu). - Bakı : Nurlan, 2006. - 528 s.

**Bünyadov T.** Qız var oğuldan qeyrətli. - Bakı : MBM, 2012. - 32 s.- Kitabda Azərbaycanın qəhrəman qadınları haqqında, cümlədən şah Tomris, Azərbaycanın Milli Qəhrəmanı Salatın Əsgərova və s. haqqında məlumat verilir.

**Cabbarov F.** H. Z. A. Tağıyevin qız məktəbinin tarixindən = Из истории женского училища Г. З. А. Тагиева. - Bakı : Ziya, 2011. - 392 s.

**Dilsuz.** Tomris ana : nağıl. - Bakı : Beşik, 2008. - 14 s. - (Mən və mənim dünyam. Güvəncin nağılları).

**Əfqanlı N. Ə.** Azərbaycan xatınları. - Bakı : Şirvannəşr, 2004. - 116 s.

**Əhmədov S. Ə.** Azərbaycan tarixindən yüz şəxsiyyət. - Bakı : Ayna Mətbu Evi, 2006. - 268 s. – Bu şəxsiyyətlərdən biri də Tomris anadır.

**Əsgərova R.** Tarix: illər, hadisələr, görüşlər, xatirələr : tarixi-publisistik qeydlər. - Bakı : Ziya, 2006. - 252 s.

**Əsgərova R.** Gültəkin zirvəsi. - Bakı : Renessans, 2014. - 496 s. - Azərbaycan və Rus dillərində.

**Gülcan M. Qadın və qlobalizasiya** // Hikmət : Elmi araşdırmalar toplusu. №18. - Bakı : Nafta - Press, 2011. – S.80-88.

**Gültəkin** : İki zirvə and yeri. Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərova haqqında ədəbi-bədii toplu. - Bakı : Qanun, 2006. - 352 s.

**Hidayətqızı S.** Yüz türk qadını. **I kitab**. - Bakı : APOSTROF, 2012. - 320 s.

**Hüseynli A. V.** Azərbaycanın qadın hökmdarları. - Bakı : Nərgiz, 2012. - 100 s. - (Məktəb kitabxanası).

**Hüseynova A.** Azərbaycanda qadın azadlığı problemi // Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyinə həsr edilmiş tələbə-şagird elmi konfransının tezisləri = Тезисы студенческо-ученической научной конференции посвященной 85-летию со дня рождения общенационального лидера Азербайджанского народа Г.А.Алиева : доклад, тезисы доклада. - Bakı : Kitab aləmi, 2008. – S.61. - Azərbaycan və rus dillərində.

**Hüseynova H**. Azərbaycan Respublikasında qadın siyasəti // İnsan hüquqları institutunun tərəfdaşları : məqalələr toplusu. - Bakı : Elm və Təhsil, 2013. - 372 s. - Azərbaycan, rus, ingilis və türk dillərində.

**Məmmədova Ş.** Anaların fəryadı. - Bakı : Gənclik, 2006. - 508 s.

**Miri E.** İslamda qadının ictimai həyatdakı rolu. - Bakı : Nurlar, 2006. - 80 s.

**Monitorinq** : Qadın Konvensiyası və biz : Rəmzi məhkəmə "janrında". - Bakı : 2004. - 84 s.

**Müsəlman cəmiyyətlərində qadınlar** = Women in muslim societies. - Bakı : Elm və həyat, 2004. - 366 s.

**Qadınlar Azərbaycanın musiqi** həyatında = Women in Azerbaijan : Bioqrafiya. - Bakı : OKA Ofset, 2004. - 115 s.

**Şirazi Ş. M.** Şəriət hökümlərinin izahı : qadınlar üçün. - Bakı : Zərdabi LTD, 2009. - 240 s.

**Soyqırım analardan başlanır**. - Bakı : Vətən, 2003. - 224 s.

**Tomiris //Tarixi rəvayətlər**. - Bakı : Altun Kitab, 2014. – S.21. - (Məktəblinin kitabxanası. Şifahi xalq ədəbiyyatı).

# Dünyada ən uca zirvədir – Qadın!
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 15
Çapa imzalanmışdır: 17.02.2018
Tirajı:100
Pulsuz